# Dövlət müstəqilliyimizin ildönümü



Qəbələ şəhər 1 nömrəli tam orta məktəbdə Azərbaycanın Dövlət Müstəqilliyi Gününə həsr olunmuş tədbir keçirilmişdir.

Tədbiri məktəbin direktoru Məhəbbət Rüstəmova açmış, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilmişdir.

Məktəbin tarix müəllimi Esmira Əsədova "Azərbaycanın müstəqilliyi əbədidir, daimidir, dönməzdir" mövzusunda məruzə etmişdir. O, çıxışında ölkəmizin öz müstəqilliyini əldə etməsinin tarixi əhəmiyyətindən, müstəqilliymizin ulu öndər Heydər Əliyevin müdrik siyasəti sayəsində xarici və daxili təhdidlərdən qorunub saxlanmasından, daimi və əbədi olmasından bəhs etmişdir. Çıxışda həmçinin ulu öndərin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyilə aparılan daxili və xarici siyasət nəticəsində Azərbaycanın bu gün regionda və dünyada tutduğu önəmli mövqe barədə geniş məlumat verilmişdir.

Sonra tədris işləri üzrə direktorun müavini Nurdanə Zeynalova çıxış edərək müstəqillik tariximizdən danışmışdır.

Tədbir məktəb şagirdlərinin ifasında müstəqillik günümüzə həsr olunmuş kompozisiya ilə başa çatmışdır.

**Nahidə Əbdürəhimova**
**İlkin Vəlizadə (foto)**
**"Qəbələ"**

# Dövlət Müstəqilliyi Günü qeyd olunub

1991-ci il oktyabrın 18-də dövlət müstəqilliyimiz haqqında qəbul olunmuş sənəd dövlətçilik tariximizdə əbədi iz qoydu və əbədiyaşarlıq rəmzinə çevrildi.

Xalqımızın azadlıq və müstəqillik arzusu ilə 1918-ci ildə qurduğu Şərqin ilk demokratik dövləti olan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay ömür sürərək tarixə qovuşdu. Lakin 70 il sonra xalq yenidən öz azadlığı uğrunda mübarizəyə başladı və şəhidlər verərək istəklərini reallaşdırdı–müstəqil Azərbaycan Respublikasını yaratdı.

1993-cü ildən sonra, ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində ölkənin müstəqilliyi tariximizə qızıl hərflərlə yazıldı.

Hər il təntənə ilə qeyd edilən bu şanlı tarix–"Dövlət Müstəqilliyi Günü" ilə əlaqədar Qəbələ Tarix-Diyarşünaslıq Muzeyində "dəyirmi masa" təşkil olunub.

Muzeyin əməkdaşı Tahirə Şəfiyeva tədbir iştirakçılarına "18 oktyabr 1991-ci il" mövzusunda mühazirə oxuyub.

Sonra mövzu ətrafında geniş söhbətlər aparılıb, fondda muhafizə olunan və bu tarixi hadisələrdən bəhs edən kitablar, elmi materiallar haqqında məlumat verilib.

**İlhamə SEYİDOVA,**
**muzeyin elmi işçisi.**

# Milli mətbuatımızın banisi

Həyatda elə insanlar var ki, onların həyatı yaşayış tərzi, qoyub getdikləri ədəbi-mədəni irs bizim yolumuza və gələcəyimizə işıq saçır. Belələrindən biri də Həsən bəy Zərdabidir.

Həsən bəy Zərdabi Azərbaycanın görkəmli ziyalısıdır. O, Moskva Universitetini namizədlik diplomu ilə bitirən ilk müsəlman məzun, islam dünyasının ilk təbiətşünas alimi, Bakı gimnaziyasının ilk müsəlman müəllimi, bütün müsəlman şərqində islam xeyriyyəçilik hərakatının banisi (Cəmiyyəti-Xeyriyyə), Azərbaycanda ilk teatr tamaşası göstərən mədəniyyət xadimi, milli mətbuatımızın banisi və çar Rusiyasının əhatə etdiyi böyük imperiyada ilk türkdilli qəzet olan "Əkinçi"nin naşiri, ölkə müəllimlərinin birinci qurultayının təşkilatçısı və sədri olmuşdur.

Həsən bəy 28 iyun 1837-ci ildə Goyçay qəzasının Zərdab kəndində anadan olmuşdur. İlk təhsilini doğulduğu kənddəki mədrəsədə almışdır. Sonralar təhsilini İsmayıl bəy Qutqaşınlının Şamaxıda açdırdığı məktəbdə davam etdirmişdir. Yüksək bacarığını görən Qafqaz Təhsil Komissiyası onu dövlət hesabına Tiflisə oxumağa göndərmişdir. Həmin məktəbi uğurla bitirən Həsən bəy Zərdabi dövlət təqaüdü ilə Moskva Universitetinin fizika-riyaziyyat fakültəsində təbiət elmləri üzrə təhsil almışdır.

Həsən bəy Zərdabinin Azərbaycan xalqı üçün ən böyük xidməti "Əkinçi" qəzeti idi. «Əkinçi» ictimai həyatın aynası olmaqla, təkcə cəmiyyətdəki nöqsan və bəlaları təsvir etməklə kifayətlənməyib, onların əlacı haqqında da, yazan, məsləhət verən bir qəzet idi.

"Əkinçi" məzmunu, ideya istiqaməti, dili təmsil etdiyi xalqa məxsus olan, onun mənəvi və maddi həyatına əsaslanan ilk növbədə doğma həmvətənlərə xidmət edən birinci qəzetdir ki, Azərbaycan milli mətbuatının tarixi də bu qəzetlə başlayır.

Dövründə "Əkinçi" Qafqazda deyil Rusiyada, Avropada da böyük mədəni hadisə kimi qiymətləndirilmişdir. Bu qəzetin ömrü çox qısa olsa da Rusiya və şərq müsəlmanlarının mədəniyyət tarixində böyük bir iz qoymuşdur. Onun milli mətbuat tarixində açdığı yol, yaratdığı ənənələr çox uzun ömürlü oldu.

Həsən bəyin bütün ömrü məhrumiyyətlər içində keçsə də öz ideyaları uğrunda mübarizəsindən əl çəkməmiş, ömrünün sonunadək xalqın maariflənidirilməsi üçün çalışmışdır.

**Çimnaz MÜZƏFFƏROVA,**
**İsmayil bəy Qutqaşınlının xatirə-ev muzeyinin müdiri.**

# Bayram tədbiri

Oktyabrın 18-də Nicat Apayev adına şəhər 4 nömrəli tam orta məktəbdə Dövlət Müstəqilliyi Gününə həsr olunmuş bayram tədbiri keçirilmişdir.



Təntənəli bayram tədbirində Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra məktəbin direktoru Qəşəngi Musayeva "Dövlət Müstəqilliyimizin 27 ili" haqqında məruzə etmişdir.

O bildirmişdir ki, Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı 1991-ci il oktyabrın 18-də qəbul edilsə də Azərbaycan özünün əsl müstəqilliyini ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra əldə etmişdir. 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Heydər Əliyev özü ilə bərabər Azərbaycana siyasi sabitlik gətirmiş, məhz onun zəngin siyasi təcrübəsi, yüksək idarəçilik bacarığı, Vətənə olan tükənməz sevgisi Azərbaycanın dövlət müstəqilliyini təhlükədən qurtarmışdır. Qeyd olunmuşdur ki, ulu öndər ölkədə xaos və anarxiyanı, cəmiyyətdə hökm sürən iqtisadi, siyasi və mənəvi psixoloji gərginliyi aradan qaldırmış, nəticədə müstəqil Azərbaycan Respublikası möhkəm əsaslar üzərində yeni inkişaf xəttini tutmuşdur.

Rəsmi hissədən sonra məktəblilərin müstəqilliyimizə, dövlətçiliyimizə həsr etdikləri ədəbi-bədii kompozisiya nümayiş etdirilmiş və iştirakçıların alqışları ilə qarşılanmışdır.

Bayram şənliyində rayon təhsil şöbəsinin işçiləri, valideynlər və məktəbin kollektivi iştirak etmişlər.

**Dünyaxanım ƏHMƏDOVA,**
**məktəbin müəllimi.**
**İlkin Vəlizadə (foto)**

# Təlim kursu təşkil edilib

Qəbələ Rayon İcra Hakimiyyəti və Alban-Udi Xristian dini icmasının dəstəyi ilə Bilik Fondu tərəfindən Nic qəsəbəsində "Azərbaycan dili" təlim kursu və "Diyarşünaslıq" dərnəyi təşkil olunub. Təlim kursunun məqsədi azsaylı xalqların milli, dini özünəməxsusluğunun qorunub saxlanmasına və Azərbaycan cəmiyyətinə daha sıx inteqrasiyasına yeni imkanlar yaratmaqdır.

Tədbirdə Nic qəsəbə inzibati ərazi nümayəndəsi İbrahim Məmmədov, Alban-Udi Xristian icmasının sədri Robert Mobili, "Cotari" alban kilsəsinin dini rəhbəri Rafik Danakari və başqaları çıxış edərək, Azərbaycan Prezidentinin yürütdüyü məqsədyönlü siyasət nəticəsində ölkəmizdə multikultural və tolerant mühitin yarandığını, Bilik Fondunun Nicdə həyata keçirdiyi layihələrin səmərəli nəticələr verdiyini minnətdarlıqla qeyd ediblər.

Bildirilib ki, Bilik Fondunun dəstəyi ilə qurulan kitabxana hazırda qəsəbə sakinlərinin ən çox üz tutduğu maarifləndirici məkanlardan biridir.

Bakı Dövlət Universiteti, Azərbaycan və Bakı Qızlar universitetlərinin tələbələri "Cotari" alban kilsəsində olublar.

Qəsəbədə açıq səma altında 3 hektar sahədə yeni yaradılmış "Udi Ocağı" Mədəniyyət Mərkəzi ilə tanışlıq da "Tariximizi öyrənək və öyrədək" Gənclər Klubu üzvlərinin yaddaşında silinməz iz qoyub.

Muzeyin qurucusu memar-rəssam Şahvələd Məmmədov qonaqları park-muzeylə tanış edib.

Bilik Fondu əlaqədar dövlət qurumlarının dəstəyi ilə tələbələrin Qəbələ Dövlət Tarix-Bədii Qoruğuna və Çuxur Qəbələ Arxeologiya Mərkəzinə də səfərini təşkil edib. AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, dosent Elmira Cəfərova tələbələrə Qəbələnin Alban-Azərbaycan tarixində yeri, rolu, burada aparılan son arxeoloji tədqiqatların aşkar etdiyi elmi yeniliklər, əldə olunan nəticələr barədə ətraflı məlumat verib. Bildirib ki, 900 ilə qədər Qafqaz Albaniyasının paytaxtı olmuş Qəbələdə arxeoloji tədqiqatlar 1926-cı ildən başlayaraq müəyyən fasilələrlə, 1959-cu ildən isə ardıcıl şəkildə aparılır. Son illərdə azərbaycanlı alimlərin koreyalı mütəxəssislərlə birgə apardıqları arxeoloji tədqiqatlar və qazıntılar nəticəsində Qəbələ tarixinin açılmamış yeni səhifələri ortaya çıxıb.

Tələbələrin çoxsaylı suallarını cavablandıran arxeoloq-alim Qafqazda ilk insan məskənlərindən olan bu ərazidə dövlət başçımızın tapşırığı və himayəsi ilə genişmiqyaslı elmi-tədqiqat işlərinin davam etdiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, Çuxur Qəbələ arxeoloji sahəsi dünya arxeoloqlarının da diqqət mərkəzindədir. İtaliya və Almaniyadan gəlmiş turistlər, elm adamları da həmin gün tarixçi tələbələrlə qoruqda birlikdə gəzib, gənclərlə təəssüratlarını bölüşüblər.

**"Qəbələ"**